**Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin**

**"_06_" ___oktyabr__ 2009-cu il**

**tarixli qərarı ilə təsdiq edilmişdir.**
**Protokol № __28__**

# Kassa dövriyyəsi haqqında statistik hesabatın tərtibi və təqdim olunması haqqında Təlimat

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat "Azərbaycan Respublikası Mərkəzi Bankı haqqında", "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) müvafiq normativ xarakterli aktlarına uyğun olaraq hazırlanmışdır.

1.2. Kassa dövriyyəsi haqqında statistik hesabat bankların kassalarına manatla nağd pulun (bundan sonra: nağd pul) daxilolma mənbələri və xərclənmə istiqamətləri haqqında məlumatları nəzərdə tutur.

1.3. Bu hesabatlar bankın baş ofisi tərəfindən bütün mövcud şəbəkə üzrə (bank və onun filialları, şöbələri) icmallaşdırılaraq Mərkəzi Banka təqdim olunmalıdır.

1.4. Bu hesabatlar "Bankların kassa dövriyyəsi haqqında statistik hesabat" formasının (Əlavə 1, bundan sonra: KDS-1 hesabat forması) və hesabat üzrə Təlimatın müddəalarına uyğun tərtib olunmalıdır.

## 2. Hesabatın məzmunu

2.1. Kassa dövriyyəsi haqqında hesabat üç bölmədən ibarətdir:

- "A" bölməsi: Hesabat dövrünün əvvəlinə və sonuna **kassa qalığı**
- "B" bölməsi: Kassaya nağd pulun **mədaxili**
- "C" bölməsi: Kassadan nağd pulun **məxarici**

2.2. Hesabatın **mədaxil** bölməsində əks olunan əməliyyatlar bank müştərilərinin fəaliyyət sferası, hüquqi statusu və əməliyyatın növündən asılı olaraq aşağıdakı qruplar üzrə təsnifləşdirilməlidir:

| **№** | **Bölmə / qrup / maddə** | **Bölmə/ qrup/ maddənin adı** |
|---|---|---|
| | **A 10** | **HESABAT DÖVRÜNÜN ƏVVƏLİNƏ KASSA QALIĞI** |
| | | ***MƏDAXİL*** |
| **1.** | **B00** | **Hüquqi şəxslərdən daxilolmalar** |
| *1.1* | *B10* | *Hüquqi şəxslərin mal satışından daxilolmalar* |
| *1.2* | *B20* | *Hüquqi şəxslərin iş və xidmətlərin göstərilməsindən daxilolmalar* |
| **2.** | **B30** | **Fiziki şəxslərdən daxilolmalar** |
| **3.** | **B40** | **Bankın hüquqi və fiziki şəxslərlə maliyyə əməliyyatları üzrə daxilolmalar** |
| **4.** | **B50** | **Bankomatlardan daxilolmalar** |
| **5.** | **B60** | **Digər daxilolmalar** |
| | | ***MƏDAXİL ÜZRƏ CƏMİ:*** |
| **6.** | **B70** | **Kassanın möhkəmləndirilməsi məqsədilə daxilolmalar** |
| **7.** | **B80** | **Mərkəzi Bankdan və onun ərazi idarələrindən daxilolmalar** |
| | | **BALANS** |

2.2.1.**Hesabat dövrünün əvvəlinə kassa qalığı (A10)**

Bu qrupda hesabat dövrünün əvvəlinə bankın əməliyyat kassasının qalığı əks olunmalıdır.

Dövrün əvvəlinə kassa qalığı keçən hesabat dövründəki KDS-1 hesabat formasının "Hesabat dövrünün sonuna kassa qalığı" bölməsinə, həmçinin keçən hesabat dövrü üzrə bankın icmal muhasibat balansında 1001-ci hesabın qalığına bərabər olmalıdır.

2.2.1. **Hüquqi şəxslərdən daxilolmalar (B00)**

Bu qrup bank müştərisi olan hüquqi şəxslərin mal satışından və göstərdiyi xidmətlər üzrə bankın əməliyyat kassasına nağd pul daxilolmalarını əks etdirir.

2.2.1.1. **Hüquqi şəxslərin mal satışından daxilolmalar (B10:** B11-B16**)**

Statistik hesabat formasına (KDS-1 hesabat forması) uyğun olaraq bu qrupda ticarət, sənaye, fermer və digər kənd təsərrüfatı, tikinti, yanacaqdoldurma məntəqələri sahələrində fəaliyyət göstərən müəssisə, təşkilat və kooperativlərin mal satışlarından əldə olunan vəsait üzrə bankın kassasına nağd pul daxilolmaları əks olunmalıdır.

Mal satışından daxilolmalar hər bir müəssisənin fəaliyyət növündən asılı olaraq bu qrupun müvafiq maddələrində əks olunmalıdır.

Hesabatın bu maddələrində əks olunmayan sahələrin mal satışından daxilolmaları *Digər satışlar üzrə daxilolmalar* maddəsində göstərilməlidir.

2.2.1.2. **Hüquqi şəxslərin iş və xidmətlərin göstərməsindən daxilolmalar (B20:** B21-B25**)**

KDS-1 hesabat formasına uyğun olaraq bu qrupda nəqliyyat, kommunal xidmətlər (qaz, su, işıq və s), rabitə, mehmanxana, ictimai iaşə və digər xidmət sahələrində fəaliyyət göstərən müəssisə və təşkilatların göstərdiyi xidmətdən əldə olunan vəsait üzrə bankın kassasına nağd pul mədaxilləri əks olunmalıdır.

Xidmət göstərilməsindən daxilolmalar hər bir müəssisənin fəaliyyət növündən asılı olaraq bu qrupun müvafiq maddəsində əks olunmalıdır.

Bank, müştərisinin hesabatın bu qrupunda əks olunmayan iş və xidmət sahələrindən daxilolmaları *Digər xidmətlər üzrə daxilolmalar* bəndində qeyd olunmalıdır.

2.2.2. **Fiziki şəxslərdən daxilolmalar (B30:** B31-B35**)**

Bu qrupda bankın əməliyyat kassasına fiziki şəxslər tərəfindən 1) vergi, rüsum və sığorta ödənişləri, 2) kommunal xidmətlər (qaz, su, işıq və s.) üzrə ödənişlər, 3) yardım, pul baratları, sosial və digər bu tip ödənişlər, 4) təhsil haqqı üzrə ödənişlər, 5) hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərdən nağd pul ödənişləri əks olunmalıdır.

Fiziki şəxslərdən daxilolmalar KDS-1 hesabat formasının müvafiq maddəsində əks olunmalıdır.

Hesabatın bu maddələrində əks olunmayan fiziki şəxslərin ödənişləri *Digər daxilolmalar* maddəsində qeyd olunmalıdır.

2.2.3. **Bankın hüquqi və fiziki şəxslərlə maliyyə əməliyyatları üzrə daxilolmalar (B40:** B41-B46**)**

Bu qrupda bankın öz müştəriləri ilə maliyyə əməliyyatları nəticəsində nağd pul daxilolmaları əks etdirilir: 1) depozit hesablarına daxilolma, 2) cari hesablara və pul köçürmələrindən daxilolma, 3) əmlak alqı-satqısı ilə əlaqədar notarial kontorlarının hesablarına daxilolmalar, 4) müştərilərə verdiyi kreditlər üzrə daxilolmalar, 5) dövlət və digər qiymətli kağızların satışı üzrə daxilolmalar, 6) xarici valyuta satışından daxil olan nağd pul vəsaitləri.

Bankın hüquqi və fiziki şəxslərlə maliyyə əməliyyatları üzrə daxilolmalar KDS-1 hesabat formasının müvafiq maddəsində əks olunmalıdır.

Hesabatın bu bölməsində əks olunmayan əməliyyatlardan nağd pul daxilolmaları *Maliyyə əməliyyatları üzrə digər daxilolmalar* maddəsində qeyd olunmalıdır.

2.2.4. **Bankomatlardan daxilolmalar (B50)**

Mərkəzi Bankın "Azərbaycan Respublikasının kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması və qiymətlilərin inkassasiyasının təşkili Qaydaları"na

uyğun olaraq qalıq pulların bankın əməliyyat kassasına mədaxili bu maddədə əks etdirilməlidir.

2.2.5. **Digər daxilolmalar (B60)**

Statistik formanın mədaxil maddələrində əks olunmayan digər əməliyyatlar üzrə, o cümlədən digər maliyyə institutlarından, beynəlxalq təşkilatlardan, dövlət idarəetmə və icra orqanlarından, təhtəl hesab şəxslərdən, təsisçilərdən, habelə bankın nizamnamə fonduna və s. daxilolmalar üzrə bankın əməliyyat kassasına nağd pul daxilolmaları bu maddədə əks olunmalıdır.

2.2.6. **Kassanın möhkəmləndirilməsi məqsədilə daxilolmalar (B70:** B71-B72**)**

Kassanın möhkəmləndirilməsi məqsədilə daxilolmalar *filiallararası hesablaşmalar* və *banklararası hesablaşmalar* üzrə təsnifləşdirilməlidir. Bankın kassasına öz filallarından və şöbələrindən daxil olan nağd vəsaitlər – B71-ci maddədə, digər banklardan və ya onların filallarından və şöbələrindən daxil olan nağd vəsaitlər isə B72-ci maddədə əks olunmalıdır.

2.2.7. **Mərkəzi Bankdan və onun ərazi idarələrindən daxilolmalar (B80:** B81-B82**)**

Bankın kassasına Mərkəzi Bankdan və onun ərazi idarələrindən daxil olan nağd pul *Mərkəzi Bankdan daxilolmalar* və *Mərkəzi Bankın ərazi idarələrindən daxilolmalar* üzrə təsnifləşdirilməlidir. Bankın kassasına Mərkəzi Bankdan daxil olan nağd vəsaitlər – B81-ci maddədə, Mərkəzi Bankın ərazi idarələrindən daxil olan nağd vəsaitlər isə - B82-ci maddədə əks olunmalıdır.

2.3. Hesabatın **məxaric** bölməsində əks olunan əməliyyatlar bank müştərilərinin fəaliyyət sferası, hüquqi statusu və əməliyyatın növündən asılı olaraq aşağıdakı qruplar üzrə təsnifləşdrilməlidir:

| № | Bölmə / qrup / maddə | Bölmə/ qrup/ maddənin adı |
|---|---|---|
| | | **MƏXARİC** |
| **1.** | **C00** | **Hüquqi şəxslərdən və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərdən** |
| *1.1.* | *C10* | *Mal, iş və xidmətlərin alınması üzrə ödənişlər* |
| *1.2.* | *C20* | *Əmək haqqı (və ona bərabər tutulan digər ödənişlər), pensiya, müavinat, sığorta və digər sosial ödənişlər* |
| **2.** | **C30** | **Bankın hüquqi və fiziki şəxslərlə maliyyə əməliyyatları üzrə ödənişləri** |
| **3.** | **C40** | **Bankomatlara pul qoyuluşu** |
| **4.** | **C50** | **Digər ödənişlər** |
| | | **MƏXARİC ÜZRƏ CƏMİ** |
| **5.** | **C60** | **Kassanın möhkəmləndirilməsi məqsədilə ödənişlər** |
| **6.** | **C70** | **Mərkəzi Banka və onun ərazi idarələrinə ödənişlər** |
| | | **BALANS** |
| | **A20** | **HESABAT DÖVRÜNÜN SONUNA KASSA QALIĞI** |

2.3.1. **Hüquqi şəxslərdən və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərdən (C00)**

Bu bölmə bank müştərisi olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərə mal, iş və xidmət alınması məqsədilə bankın əməliyyat kassasından nağd pul ödənişlərini əks etdirir.

2.3.1.1. **Mal, iş və xidmətlərin alınması üzrə ödənişlər (C10:** C11-C19**)**

Təlimata əlavə olunmuş KDS-1 hesabat formasına uyğun olaraq bu qrup ticarət, sənaye, tikinti, fermer və digər kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən

müəssisələrin mal alışları, habelə nəqliyyat, rabitə, mehmanxana, ictimai iaşə və digər sahələrdə fəaliyyət göstərən müəssisələrin xidmət haqqı ödənişləri məqsədilə bankın kassasından nağd pul ödənişlərini əks etdirməlidir.

Ödənişlər hər bir müəssisənin fəaliyyət növündən asılı olaraq KDS-1 hesabat formasının müvafiq maddəsində əks olunmalıdır.

Hesabatın bu bölməsində əks olunmayan müştərilərin məxaricləri *Digər müəssisələr* maddəsində qeyd olunmalıdır.

2.3.1.2. **Əmək haqqı (və ona bərabər tutulan digər ödənişlər), pensiya, müavinat, sığorta və digər sosial ödənişlər (C20:** C21-C29**)**

Bu qrup ticarət, sənaye, fermer və digər kənd təsərrüfatı müəssisələri, tikinti müəssisələri və kooperativləri, nəqliyyat, rabitə, mehmanxana, ictimai iaşə, şou-biznes sahələrində fəaliyyət göstərən müəssisə və təşkilatların, habelə maliyyə xidməti həyata keçirən institutların əmək haqqı (və ona bərabər tutulan digər ödənişlər), pensiya, müavinat, sığorta və digər sosial ödənişləri həyata keçirmək məqsədilə bankın kassasından nağd pul ödənişlərini əks etdirməlidir.

Ödənişlər hər bir müəssisənin fəaliyyət növündən asılı olaraq KDS-1 hesabat formasının müvafiq maddəsində əks olunmalıdır.

Hesabatın bu bölməsində əks olunmayan sahələr üzrə ödənişləri *Digər müəssisələr* maddəsində qeyd olunmalıdır.

2.3.2. **Bankın hüquqi və fiziki şəxslərlə maliyyə əməliyyatları üzrə ödənişləri (C30:** C31-C38**)**

Hüquqi və fiziki şəxslərlə aparılan maliyyə əməliyyatları nəticəsində bankın əməliyyat kassasından bütün nağd pul ödənişləri hesabat formasının bu qrupunda əks olunmalıdır.

Maliyyə əməliyyatları növündən asılı olaraq aşağıdakı kimi təsnifləşdirilməlidir:

- Depozit hesablarından ödənilən – müştərinin bankda yerləşdirdiyi depozit hesabından nağd ödənişlər;

- Cari hesablardan ödənişlər, pul köçürmələri – bankda açılmış cari hesablardan nağd ödənişlər; hesab açılmadan müxtəlif pul köçürmələri üzrə nağd ödənişlər;
- Əmlak alqı-satqısı ilə əlaqədar notarial kontorlarının hesablarına ödənişlər;
- Verilmiş kreditlər üzrə ödənişlər – bankdan hüquqi və fiziki şəxslərə kreditlərin nağd formada verilməsi;
- Faiz və dividendlərin ödənilməsi – bankın müxtəlif öhdəlikləri üzrə faiz və dividendlərin nağd şəkildə ödənilməsi;
- Sığorta ödənişi – bankın kassasından bütün növ sığorta ödənişləri;
- Dövlət və digər qiymətli kağızların alınması üçün nağd ödənişlər - səhm, istiqraz, lotereya, sertifikat və digər qiymətli kağızlar geri alındıqda banklar tərəfindən fiziki və hüquqi şəxslərə nağd pulla ödəmələr;
- Xarici valyutanın alışından – bankın daxilində (baş ofis və filiallar), habelə banka aid olan valyuta mübadiləsi şöbələrinin xarici valyutanın alınması üçün nağd manat ödənişləri;
- Maliyyə əməliyyatları üzrə digər ödənişlər – yuxarıdakı kateqoriyalara aid olmayan, lakin bankın kassasından maliyyə əməliyyatları üzrə bütün növ nağd pul ödənişləri.

2.3.3. **Bankomatlara pul qoyuluşu (C40)**

Mərkəzi Bankın "Azərbaycan Respublikasının kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması və qiymətlilərin inkassasiyasının təşkili Qaydaları"na uyğun olaraq bankomatın nağd pulla təchiz edilməsi məqsədilə pulların bankın əməliyyat kassasından məxarici bu maddədə əks etdirilməlidir.

2.3.4. **Digər ödənişlər (C50)**

Yuxarıda qeyd olunan məxaric maddələrində əks olunmayan digər əməliyyatlar üzrə, o cümlədən digər maliyyə institutlarına, beynəlxalq təşkilatlara, dövlət orqanlarına, təhtəl hesab şəxslərə, habelə bankın təsərrüfat, ərzaq, ezamiyyə xərcləri və s. nağd pul ödənişləri bu maddədə əks olunmalıdır.

2.3.5. **Kassanın möhkəmləndirilməsi məqsədilə ödənişlər (C60:** C61-C62**)**

Kassanın möhkəmləndirilməsi məqsədilə ödənişlər *filiallararası hesablaşmalar* və *banklararası hesablaşmalar* üzrə təsnifləşdirilməlidir. Bankın kassasından öz filallarına və şöbələrinə ödənilən nağd vəsaitlər – C61-ci maddədə, digər banklara və ya onların filallarına, şöbələrinə ödənilən nağd vəsaitlər isə C62-ci maddədə əks olunmalıdır.

2.3.6. **Mərkəzi Banka və onun ərazi idarələrinə ödənişlər (C70:** C71-C72**)**

Bankın kassasından Mərkəzi Banka və onun ərazi idarələrinə ödənilən nağd pul *Mərkəzi Banka ödənişlər* və *Mərkəzi Bankın ərazi idarələrinə ödənişlər* üzrə təsnifləşdirilməlidir. Bankın kassasından Mərkəzi Banka ödənilən nağd vəsaitlər – C71-ci maddədə, Mərkəzi Bankın ərazi idarələrinə ödənilən nağd vəsaitlər isə – C72-ci maddədə əks olunmalıdır.

2.4. **Hesabat dövrünün sonuna kassa qalığı (A20)**

KDS-1 hesabat formasının bu bölməsi, hesabat dövrünün sonuna bankın kassa qalığını əks etdirir. Dövrün sonuna kassa qalığı bankın icmal muhasibat balansının 1001-ci hesabının qalığına bərabər olmalıdır.

## 3. Hesabatın tərtibi və təqdim olunması

3.1. Nağd pulun dövriyyəsi haqqında hesabat mühasibat uçotunun məlumatları (çeklər, kassa mədaxili və məxarici orderləri və bu kimi digər sənədlər) əsasında tərtib olunur.

3.2. Kassa dövriyyəsi hesabatının mədaxil hissəsi kassa mədaxil sənədində göstərilən pulun daxilolma mənbəyindən, məxaric hissəsi isə müştərilər tərəfindən alınan məbləğin təyinatından asılı olaraq hesabat formasının müvafiq maddəsində qeyd olunur.

3.3. Hesabat formasında bütün maddələr müvafiq qruplar, qruplar cəmi isə müvafiq bölmələr üzrə cəmlənir.

3.4. Hesabat formasının B10, B20, B30, B40, B50, B60-cı bölmələrinin cəmi *Mədaxil üzrə cəmi* maddəsində, C10, C20, C30, C40, C50 bölmələrinin cəmi isə *Məxaric üzrə cəmi* maddəsində əks olunmalıdır.

3.5. Bütün mədaxil və məxaric maddələrinin cəmi hesabat formasının müvafiq ***Balans*** bəndində əks olunmalıdır. Mədaxilin ***Balans*** bəndi məxaricin ***Balans*** bəndinə bərabər olmalıdır.

3.6. Dövrün sonuna kassa qalığının həcmi dövrün əvvəlinə kassa qalığı ilə dövr ərzində kassaya mədaxilin cəmindən dövr ərzində kassadan məxaric olunan vəsaiti çıxmaqla müəyyənləşir.

Bununla yanaşı hesabat dövrünün sonuna kassa qalığı bankın mühasibat balansında 1001-ci hesabın qalığı ilə eyni olmalıdır.

3.7. Kassa dövriyyəsi haqqında statistik hesabatın dövrü – bir aydır.

3.8. Bank, özünün mövcud şəbəkəsi üzrə (bank və onun filialları, şöbələri) kassa dövriyyəsi haqqında icmallaşdırılmış statistik hesabatı Mərkəzi Banka elektron və kağız daşıyıcılarda hər hesabat ayından sonrakı ayın 3 (üç) iş günü ərzində təqdim etməlidir. Əməliyyat baş verməyən hallarda hesabatın bu göstərici üzrə “0” (sıfır) rəqəmi yazılmalıdır.

3.9. Mərkəzi Banka təqdim edilən hesabatlar bankın İdarə Heyəti sədrinin və baş mühasibin imzası və bankın möhürü ilə təsdiq edilməlidir.

3.10. Hesabatda məlumatların qeyri-dəqiqliyi aşkar edildikdə hesabatı təqdim edən bank dərhal düzəlişlər aparmalıdır.

## 4. Yekun müddəalar

4.1. Bu Təlimata müvafiq olaraq statistik hesabatların tərtibi və təqdim edilməsi tələblərini pozan banklar və bank inzibatçıları qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

4.2. Bu Təlimat 06 oktyabr 2009-cu il tarixindən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **E.Rüstəmov**